# Sənəti ilə dünyanı dolaşır



## *Təkəlduzçu Güləndam Alxasova tarixi ənənəni zənginləşdirir*



**Tarixən xarici və yerli turistlərin daim diqqətini cəlb edən Şəkidə sənətkarlıq nümunələri inkişaf edir. Dekorativ-tətbiqi incəsənətin bir növü olan bədii tikmə sənəti - təkəlduz dünyada geniş yayılır. Belə ki, sənətkarlar diyarı kimi tanınan şəhərdə ulu nənələrimizin əl işləri davam etdirilir və bu nümunələr sərhədləri aşır.**

Təkəlduz sənətini müasir dövrdə yaşadan və bu peşəyə gətirdiyi yenilikləri və yetirmələri ilə onu məşhurlaşdıranlardan biri Güləndam Alxasova ilə söhbətimiz sənətkarlığın sərhəd bilməyən uğurlarından başladı. Uşaq vaxtından təkəlduza böyük maraq göstərdiyindən xeyli çalışıb, bu sahəyə sonsuz həvəsin və tükənməz işgüzarlığın nə vaxtsa böyük fayda verəcəyi şübhəsiz idi. Hətta Şəkidə mütəmadi işıqların olmadığı bir vaxtda da şam işığında bu peşəni öyrənmişəm. Beləliklə də özüm üçün bir emalatxana yaratmağa nail oldum.

Ömrünün 50 ilini təkəlduz sənətinə həsr edən həmsöhbətim dedi ki, ulu öndər Heydər Əliyevlə 1996-cı ildə Bakıda keçirilən sərgidə görüşüm bu sahənin inkişafında və mənim həyatımda müstəsna rolu oldu. Həmin vaxt sərgidə ulu öndər mənim və oğlum Muradın əl işlərinə baxaraq əsərlərimizə yüksək qiymət verdi. Oğluma "balaca sənətkar", mənə isə "xalq sənətkarı" deyərək hər ikimizi xeyli qürurlandırdı. Həmin vaxt sərgidə birinci yeri tutdum və pul mükafatına layiq görüldüm. Ulu öndərlə növbəti görüşüm 2002-ci ildə Şəkidə Olimpiya İdman Kompleksinin açılışında oldu və möhtərəm Prezidentimizin məsləhəti ilə 2004-cü ildə Rəssamlar İttifaqına üzv seçildim və sənəti inkişaf etdirməyə başladım.

Oğlu Murad fiziki qüsurlu doğulduğundan həyatda qarşılaşdığı problemlərə toxunan Güləndam xanım bildirdi ki, fikirləşdim ki, sənəti fiziki qüsurlu uşaqlara da öyrədim. Çünki belə uşaqların ev şəraitinə qapılması və cəmiyyətdən uzaq düşməsi məni çox narahat edirdi. Ulu öndərlə görüşdən sonra bu istəyimə nail oldum. Beləliklə də uşaqları bir yerə toplayaraq onlara sənətin sirlərini öyrətməyə başladım. Dövlətin dəstəyi ilə hətta ayrı-ayrı qruplarla əlaqədar ansambllar yaratdıq və geniş ictimaiyyət tərəfindən dəstəkləndik.

Təkəlduz elə bir sənət növüdür ki, bu fiziki məhdudiyyətindən asılı olmayaraq hər kəs üçün xeyirlidir. Hətta fiziki qüsurlu insanlara müalicə əhəmiyyəti baxımından da faydalıdır. Bu səbəbdən də uşaqlar üçün iş yerləri və onların yaradıcılıq işlərinin genişlənməsi üçün lazımi şərait yaratdıq. Qrupumuzun əl işləri dünyada geniş yayıldığından və böyük əks-səda doğurduğundan əvvəlcə İtaliyadan mütəxəssislər gələrək fəaliyyətimizlə ətraflı maraqlandılar və layihəni genişləndirmək fikrinə düşdülər.

Türkiyədə, Qazaxıstanda, Amerikanın 6 ştatında, Gürcüstanda, Estoniyayada və digər ölkələrdə səfərdə olan Güləndam xanım bildirdi ki, əvvəlcə yaxın bölgələrimiz olan Qax və Zaqataladan başlamaqla dünyada qədim sənəti təbliğ etməyə başladıq.

Dünyanın tanınmış şəxsiyyətlərinin - Heydər Əliyevin, Atatürkün, Prezident İlham Əliyevin şəkillərini təkəlduzla toxumuşam və yetərincə bəyənildiyindən böyük əks-səda doğurub.

Ömrünün 50 ildən çoxunu təkəlduz sənətinə həsr edən həmsöhbətim xeyli müddətdir ki, respublikamızın ayrı-ayrı bölgələrində sənətkarlıq kursları keçir. 35-dən çox fiziki qüsurlu yetirməsi olan Güləndam xanım hazırda 5 tələbəsi ilə yanaşı, ekspert-təlimçi kimi hər həftənin birinci günü Qubanın Xınalıq kəndində sabahın sənətkarları layihəsi altında master-klas keçir.

1955-ci ildə Şəki şəhərində anadan olan və on altı yaşından dekorativ tətbiqi sənət sahəsinə maraq göstərən Güləndam Alxasova deyir ki, əvvəlcə



kukla sənəti, həmçinin bədii tikmənin xovlu və qobelen tikmə, muncuqlarla iş növləri ilə maraqlanıb. Bir çox xarici ölkələrdə olduqdan sonra gördüm ki, elə sənət növləri var ki, dünyanın heç bir yerində onlara rast gəlmək mümkün deyil. Biz ailəlikcə həmin sənət növlərindən 18-ni öyrənmişik. Oğlum Murad, gəlinim Anna da bu sənət növləri ilə yaxından məşğul olur. Bu səbəbdən də bizi ölkəmizin hüdudlarından kənarda da yaxşı tanıyırlar. Sevinirəm ki, 18 yaşlı nəvəm Lalə də dördüncü nəsil olaraq ailəmizin sənət ənənələrini davam etdirir.

Xanım sənətkarın sözlərinə görə, təkəlduz sənəti çox incəlik tələb edən, xeyli vaxt aparan sənət növüdür. Sevindirici haldır ki, ailəmizin böyük məharətlə əmələ gətirdiyi tikmə nümunələri dəfələrlə xarici ölkələrdə nümayiş etdirilib və böyük rəğbətlə qarşılanıb.

Güləndam xanım üç ildir ki, İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin ekspert təlimçisi kimi fəaliyyət göstərir, dekortiv-tətbiqi sənətlə məşğul olmaq istəyən yeniyetmə və gənclərə, həmçinin sənətkarlara bu sənətin sirlərini öyrədir. KOBİA tərəfindən təşkil edilən təlimlərdə özünün hazırladığı xüsusi proqram əsasında iştirakçılara sənətkarlıq, yaşıl iqtisadiyyat, turizm və digər mövzularda təlimlər keçir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 26 iyul (№ 153).- S.12.